## Cari ilin doqquz ayının yekunları

# GƏNCƏ: SOSİAL-İQTİSADİ MƏDƏNİ QURUCULUQDA UĞURLAR






Gəncə Şəhər İcra Hakimiyyətinin möhtəşəm zalında, şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərləri, ziyalılar və geniş ictimaiyyətin nümayəndələrinin iştirakı ilə 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş geniş toplantı keçirilmişdir. **Yığıncağı giriş sözü ilə açan Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev respublikada gedən innovativ inkişafdan, nəhəng layihələrin icrasından, şəhərin yüksək inkişaf tempindən ətraflı söhbət açdı.** O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı geniş nitqindən irəli gələn vəzifələrdən ,qazanılan uğurlardan əhatəli söhbət açaraq qeyd etdi ki,dünyada baş verən dərin siyasi və iqtisadi böhranlara baxmayaraq aparılan məqsədyönlü və ardıcıl iqtisadi siyasət nəticəsində bu gün Azərbaycanda makroiqtisadi sabitlik qorunub saxlanılır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu çağdaş dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirərək davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin icra olunması, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi, mühüm əhəmiyyətə malik sosial proqramların reallaşdırılması nəticəsində Azərbaycanın beynəlxalq aləmdə imici artır, respublikanın bütün sahələri inkişaf edir.

Şəhər icra hakimiyyətinin fəaliyyətinin əsasını möhtərəm Prezident cənab İlham Əliyevin Gəncənin sosial-iqtisadi inkişafı istiqamətində verdiyi tapşırıq və tövsiyələr, bu sahədə imzaladığı sərəncamların, qərarların icrası və həmçinin Nazirlər Kabinetinin geniş iclasındakı nitqindən irəli gələn vəzifələr təşkil etmişdir. Son illər şəhərin iqtisadi və sosial həyatında müşahidə olunan inkişaf dinamikası 2015-ci ilin yanvar-sentyabr aylarında da davam etmişdir.

Şəhərin inkişafını xarakterizə edən əsas göstərici - ümumi daxili məhsul buraxılışı 105,7 faiz və ya müqayisəli qiymətlərlə 35,6 milyon manat artaraq 662,8 milyon manata çatmışdır.

Əhalinin hər bir nəfərinə düşən ümumi məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 6,7 faiz artaraq 2046,3 manat səviyyəsində olmuşdur. Ümumi daxili məhsulun 71,0 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür.

2015-ci ilin 9 ayında ümumi məhsulun 25,1 faizi sənayedə, 0,3 faizi kənd təsərrüfatında, 39,0 faizi tikintidə, 8,0 faizi nəqliyyatda, 0,5 faizi informasiya və rabitədə, 27,1 faizi ticarət və xidmət sahələrində istehsal edilmişdir. Ümumi daxili məhsul buraxılışının 64,3 faizi iqtisadiyyatın istehsal, 35,7 faizi isə xidmət sahələrinin payına düşmüşdür. Şəhər iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 322,2 manat, ötən ilin müvafiq dövründə isə 315,7 manat təşkil etməklə 2,1 faiz artmışdır.

Hesabat ilində məhsul istehsalı və xidmətlərin həcmi özündən əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə Gəncə Avtomobil zavodunda və "Cihazqayırma zavodu" ASC-də, "EL-BA" MMC-də, "Gəncə Dəyirman" MMC-də, "Azeri-Arapoğlu", "Gəncə Qənnadı" ASC-də, "DET.AL Alüminium" MMC-də, "Sem-San" şirkətində artmışdır. Bu müəssisələr tərəfindən ötən ilin müvafiq dövrü ilə müqayisədə əlavə olaraq 29 milyon manatdan çox məhsul istehsal olunmuşdur.

Son illər şəhərdə aparılan abadlıq-quruculuq işlərinin geniş miqyas almasının ən başlıca səbəbi ölkə Prezidenti İlham Əliyevin Gəncəyə və onun əhalisinə olan diqqət və qayğısıdır. Həyata keçirilən tədbirləri əhali razılıqla qarşılayır və fəal iştirakçısına çevrilir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində Gəncəçay çayının şəhər ərazisindən keçən hissəsində sahilboyu bərkitmə işlərinin aparılması və çayın məcrasının yenidən qurulması işləri sürətləndirilmişdir. İlkin olaraq çayın sağ sahilində bulvarın salınması ilə əlaqədar layihə üzrə nəzərdə tutulan işlərdən Uşaq Əyləncə və Ticarət mərkəzi tikilmiş, kafe və digər məişət obyektləri, fəvvarələr inşa edilmiş, 13 min 400 kv.metrdən çox tamet və bardür döşənmiş, yaşıllaşdırma işləri aparılmışdır.

Möhtərəm Prezident cənab İlham Əliyevin xeyir-duası ilə təməli qoyulmuş Gəncə Dövlət Filarmoniyasının və Gəncə Dövlət Dram Teatrının yeni binasının inşası sürətləndirilmişdir.

Atatürk prospekti, 264 və 266 ünvanda inşa edilən 50 mənzilli 5 mərtəbəli yaşayış binasının, həmçinin bu prospektdə, Respublika Təhsil İdman Məktəbinin qarşısında ümumi yaşayış sahəsi 32 min 819 kv. metr olan 4 ədəd 7 mərtəbəli, 2 ədəd 5 mərtəbəli yaşayış binasının inşası davam etdirilir. Keçmiş Toxuculuq Kombinatının yataqxanalarında yaşayanlar üçün Nizami prospekti ilə Kimyaçılar küçəsinin kəsişməsində, 0,5 hektar torpaq sahəsində 3 ədəd 3 bloklu doqquzmərtəbəli bina, 1 ədəd, 1 bloklu onmərtəbəli bina, ümumilikdə 249 mənzilli çoxmərtəbəli yaşayış binalarının tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanması başa çatmış, tikintisinə başlanılmışdır."Yeni Gəncə yaşayış Kompleksi" MTK tərəfindən 3,3 ha torpaq sahəsində 2,4 və 8 bloklu, ümumi sahəsi 69,6 min kv. metrdən çox yaşayış kompleksinin və Cavad xan küçəsi, 34 ünvanda 7 mərtəbəli, ümumi sahəsi 5 min 586 kv. metr olan Biznes Mərkəzinin inşası sürətləndirilmişdir.

Dövlət başçısının tapşırığına əsasən Zazalı -"İmamzadə" kompleksi - Gəncə avtomobil yolunun təmiri və yenidən qurulması işləri ilə əlaqədar müvafiq tədbirlər həyata keçirilir və ilkin olaraq "İmamzadə" kompleksi ilə M.İbrahimov küçəsi arasındakı yol genişləndirilərək istinad divarları çəkilmiş, yaşıllıqlar salınmış, yolboyu daşınmaz əmlakların fasadları və hasarları kərpiclə üzlənmiş, səki daşları düzülmüşdür. Bordür və işıq dirəkləri ilə yolun hərəkət hissəsi iki hissəyə ayrılacaqdır.

2015-ci ilin doqquz ayında avtomobil nəqliyyatı ilə 64 milyon 393 min nəfər, 2014-cü ilin doqquz ayında 60 milyon 350 min nəfər sərnişin, 2015-ci ilin doqquz ayında 3 milyon 289 min ton yük, 2014-cü ilin doqquz ayında isə 3 milyon 123 min ton yük daşınmışdır.

Yeni inşa edilən Beynəlxalq Avtovağzalın tikintisi davam etdirilir.

Gəncə Lokomotiv deposunda istismarda olan 22 ədəd müxtəlif tipli elektrovozlar, 5 ədəd isə manevr teplovozları təmir edilərək istismara verilmişdir. Fəhlələrin iş şəraitinin yaxşılaşdırılması məqsədilə müəssisənin təmir sexlərində beton döşəmələr taxta döşəmələr ilə əvəz edilmiş, paltarlar saxlanılan otaqlar, hamam, sanitar qovşağı əsaslı şəkildə təmir edilmiş, binanın fasad hissəsi yenidən rənglənmiş, ərazidə işıqlandırma sistemi quraşdırılmışdır. Gəncə Vaqon deposunda işçilərin məişət və əmək şəraitinin yaxşılaşdırılması məqsədilə uzun müddət istifadə edilməyən 150 və 100 kv.metrlik boş bina əsaslı təmir edilmiş, müvafiq olaraq geyinib-soyunma otağı və yeməkxana işçilərin istifadəsinə verilmişdir.

Cari ilin 9 ayı ərzində orta hesabla hər bir ailəyə 157 manat olmaqla, bu kateqoriyadan olanlara hər ay ərzində dövlət tərəfindən 555 min 740 manat məbləğində yardım ödənilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin əsas mahiyyəti əhalinin faydalı məşğulluğunun təmin edilməsindən və yeni iş yerlərinin açılmasından ibarətdir. Məşğulluq Mərkəzinə 831 nəfər vətəndaş müraciət etmişdir. Əmək birjası tərəfindən işlə təmin olunan 340 nəfərdən 139 nəfərini qadın, 55 nəfərini 15-29 yaşında olan gənclər təşkil etmişdir.

Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması hər il olduğu kimi 2015-ci ilin 9 ayı ərzində də davam etdirilmişdir. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən şəhər üzrə ümumilikdə 19 sahibkarlıq subyektinə 5 milyon 627 min manatdan çox güzəştli kredit verilmiş, bunun nəticəsində 115 yeni iş yeri açılacaqdır.

Şəhərin sosial-iqtisadi inkişafı ilə əlaqədar olaraq istehlakçıların elektrik enerjisi təchizatının keyfiyyətli və dayanıqlı təmin olunması məqsədilə "Qərb" Regional Enerji Təchizatı və Satışı İdarəsinin Gəncə Paylayıcı Şəbəkəsi tərəfindən mərhələli şəkildə müəyyən tədbirlər həyata keçirilir. Bu məqsədlə şəhər elektrik şəbəkəsində geniş əhatəli yenidənqurma işləri davam etdirilməklə, yeni güc mərkəzləri yaradılır, elektrik enerjisi itkilərinin azaldılması, enerji haqlarının vaxtında və tam şəkildə yığılması üçün təşkilati və texniki tədbirlər görülür.

Gəncə Qaz İstismarı Sahəsi tərəfindən 2015-ci ilin 9 ayı ərzində magistral qaz kəmərlərinin etibarlı qaz təchizatı və təhlükəsiz istismarının təmin edilməsinə, eləcə də itkilərin azaldılmasına yönəldilmiş mühüm işlər görülmüşdür. Mövcud qaz şəbəkəsinin qorunub saxlanılması məqsədilə Avtozavod qəsəbəsində, 12 nömrəli binanın qarşısında en kəsiyi 76 mm olan qaz xətti sökülərək 150 metr hissəsinin yeri dəyişdirilmiş, eyni zamanda burada korroziyaya uğramış 425 metrə yaxın qaz xətti yeraltı qaz xətti ilə əvəz edilmişdir.

Müstəqil Azərbaycan dövlətində təhsilin inkişafı milli inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ulu öndər Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" müdrik kəlamı ilə bünövrəsi qoyulan təhsil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə təhsilə dövlət səviyyəsində diqqət və onun nəticəsidir ki, tam orta məktəblərdə şagird sıxlığının aradan qaldırılması məqsədi ilə Mehdi Mehdizadə adına 4 №-li tam orta məktəbdə yeni tədris korpusunun istifadəyə verilməsinin davamı olaraq Mir Cəlal Paşayev adına 39 №-li tam orta məktəbdə yeni tədris korpusunun inşası başa çatmaq üzrədir. Bu yeni inşa edilmiş 1 min 200 şagird yerlik əlavə korpus ilin sonunadək istifadəyə veriləcəkdir.

Məktəblərdə tədrisin keyfiyyətinə və onun davamlı inkişafına əlverişli şərait yaradılmışdır. Bunun nəticəsidir ki, bu il orta məktəbi bitirən məzunların 1 min 850 nəfəri ali məktəblərə sənəd təqdim etmiş və onlardan 935-i, yəni 50, 54 faizi tələbə adını qazanaraq ali təhsil müəssisələrinə qəbul olmuşdur.

Hesabat dövründə səhiyyə müəssisələrində əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, müayinə və müalicə işinin müasir dövrün tələbləri səviyyəsinə çatdırılması məsələləri şəhər icra hakimiyyətinin daim diqqət mərkəzində olmuşdur. Abbas Səhhət adına, həmçinin Yoluxucu Xəstəliklər xəstəxanalarında və 6 saylı Poliklinikada əsaslı təmir işləri başa çatmış, bu səhiyyə ocaqlarının müasir avadanlıqlarla, inventarlarla təminatına və onların quraşdırılmasına başlanılmışdır.

Psixiatriya xəstəxanasında müasir tələblərə uyğun yeni 2 korpus və yardımçı binaların tikintisi davam etdirilməkdədir. 2 saylı Birləşmiş Uşaq Xəstəxanasının əsaslı təmir işlərinə başlanılmışdır. Cari ilin 9 ayında müasir aparat və avadanlıqlarla təminatın yaxşılaşdırılması ilə əlaqədar Səhiyyə İdarəsi tərəfindən histeroskop, qastraskop, müasir narkoz aparatı, avtoklav, sterilizator, biokimyəvi analizator, mikroskop sentrifuqa, dərman soyuducusu və digər avadanlıqlar alınaraq tibb ocaqlarına istifadə üçün verilmişdir.

Çıxışının sonunda şəhər rəhbəri tam əminliklə bildirdi ki, qədirbilən gəncəlilər dövlət başçısının tərəqqiyə xidmət edən daxili və xarici siyasətini ürəkdən bəyənir və dəstəkləyir, onun ətrafında sıx birləşməklə qarşıda qoyulan tapşırıq və tövsiyələri əzmlə yerinə yetirməklə, ölkənin yüksəlişinə və inkişafına özlərinin dəyərli töhfələrini verəcək, şəhərdə gedən sürətli innovativ və kompleks inkişaf, yeni uğurlara yol açacaq və qarşıda duran bütün işlər layiqincə yerinə yetiriləcəkdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**